**A Z Ə R B A Y C A N  R E S P U B L İ K A S I**
**BAKI ŞƏHƏRİ BİNƏQƏDİ RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ**
**S Ə R Ə N C A M I**

**№ 216** **«25» Dekabr 2024-cü il**

**Rayonun mülki müdafiə sahəsində 2024-cü tədris ilinin yekunları və 2025-ci tədris ilində qarşıda duran vəzifələr barədə**

2024-cü ildə Binəqədi rayonunun idarə, müəssisə və təşkilatları illik mülki müdafiə tədbirlər planı əsasında mülki müdafiə tədbirlərinin icrasının vaxtında təmin olunması, əhaliyə və işçilərə mülki müdafiə sahəsində biliklərin öyrədilməsi, ehtimal olunan fövqəladə hadisələrin nəticələrinin operativ aradan qaldırılması üçün mülki müdafiə (bundan sonra MM) qüvvələrinin hazırlıq səviyyəsinin yüksəldilməsi tədbirlərinin həyata keçirilməsini təşkil etmişlər.

İl ərzində rayonun idarə, müəssisə və təşkilatlarında obyekt MM məşqi, rəhbər heyətin MM məşqi, MM dəstələrinin əməli məşqi, MM qüvvələrinin xəbərdarlıq və toplanış məşqləri keçirilmişdir. Rayonun rəhbər və komandir-rəis heyətindən 3 (üç) nəfərin Fövqəladə Hallar Nazirliyinin Mərkəzi MM kursunda hazırlanması təmin olunmuşdur.

2024-cü tədris ilində rayonun, təsərrüfat obyektlərinin (müəssisə və təşkilatların) mülki müdafiəyə hazırlanmasında əsas məqsəd əhalinin və işçilərin ehtimal olunan fövqəladə hadisələrdən mühafizəsinin təşkili, mülki müdafiənin təbliği, əhalinin fövqəladə hadisələrdən mühafizəyə hazırlanması, rayon ərazisində ehtimal olunan fövqəladə hadisələrin nəticələrinin operativ olaraq aradan qaldırılması üçün mülki müdafiə qüvvələrinin daimi hazırlığının təmin edilməsi ilə bağlı Binəqədi rayonu üzrə fövqəladə hallar və mülki müdafiə şöbəsinin tövsiyələrinə əsasən müvafiq tədbirlər həyata keçirilmişdir.

Tədris ilində əhalinin maarifləndirilməsi ilə bağlı müxtəlif tədbirlər həyata keçirilmişdir. Bu məqsədlə 1 mart tarixində "Ümumdünya Mülki Müdafiə Günü" ilə əlaqədar rayonun idarə, müəssisə və təşkilatlarında, təhsil, səhiyyə və mədəniyyət müəssisələrində maarifləndirmə tədbirləri keçirilmişdir. Tədbir zamanı mülki müdafiəyə həsr olunmuş konfrans, seminar, yığıncaqlar və mülki müdafiə qüvvələrinin xəbərdarlıq toplanış məşqi, məktəblərdə açıq dərslər keçirilmiş, mülki müdafiə əmlaklarının sərgiləri təşkil olunmuş, yaralanmalar zamanı ilkin tibbi yardımın göstərilməsi və yanğınların qarşısının alınması üsulları, fövqəladə hallar zamanı təxliyənin təşkili qaydaları nümayiş etdirilmişdir.

Scanned with CamScanner

2025-ci tədris ilində fövqəladə hadisələr zamanı əhalinin mühafizəsi, rəhbər və komandir-rəis heyətinin, mülki müdafiə dəstələrinin mülki müdafiəyə hazırlanması və əhaliyə mülki müdafiənin öyrədilməsi ilə bağlı mülki müdafiə işinin təşkilinin keyfiyyətinin artırılması, fövqəladə halların qarşısının alınması və nəticələrinin operativ surətdə aradan qaldırılması məqsədi ilə:

1 Rayonun Fövqəladə Hallar Komissiyasına, yerli özünü idarəetmə orqanlarının, mülki müdafiə xidmətlərinin, idarə müəssisə və təşkilatların rəhbərlərinə tapşırılsın.

1.1. 2025-ci tədris ilində rayon icra hakimiyyəti, yerli özünüidarəetmə orqanları, idarə, müəssisə və təşkilatların mülki müdafiəyə hazırlanmasında əsas diqqət əhalinin və işçilərin ehtimal olunan fövqəladə hadisələrin təsirindən qorunması məqsədi ilə profilaktik tədbirlərin həyata keçirilməsinə, mülki müdafiə sahəsində maarifləndirmə işinin gücləndirilməsinə, mülki müdafiə qüvvələrinin hazırlıq səviyyəsinin artırılmasına və baş verə biləcək fövqəladə hadisələrin nəticələrinin operativ olaraq aradan qaldırılması üçün xilasetmə və digər təxirəsalınmaz işlərin yerinə yetirilməsinin təşkilinə yönəldilsin.

1.2. Mülki müdafiə normativlərinin yerinə yetirilməsi, mülki müdafiə təlim və məşqləri mülki müdafiənin təmin edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 193 saylı 25 sentyabr 1998-ci il tarixli qərarına əsasən planlaşdırılsın və həyata keçirilsin.

1.3. 2025-ci tədris ilində Binəqədi rayonu üzrə fövqəladə hallar və mülki müdafiə şöbəsinin rəhbərliyi ilə rayonun ərazi mülki müdafiə dəstələri ilə 30 aprel və 03 oktyabr tarixlərində xəbərdarlıq toplanış məşqləri keçirilsin. Xəbərdarlıq toplanış məşqinin keçirilməsi planı rayon fövqəladə hallar və mülki müdafiə şöbəsi tərəfindən hazırlansın və rayon İHB-nın birinci müavini tərəfindən təsdiq edilsin.

1.4. Rayonun idarə müəssisə və təşkilatları 2025-ci il üçün "Mülki müdafiə tədbirlər planı"nı hazırlayıb 29 dekabr 2024-cü il tarixinə kimi Binəqədi rayonu üzrə fövqəladə hallar və mülki müdafiə şöbəsi ilə razılaşdırılsın.

1.5. Yerli özünüidarəetmə orqanları, idarə, müəssisə və təşkilatların "2025-ci ilin mülki müdafiə tədbirləri planı"nda 1 mart "Ümumdünya Mülki Müdafiə günü" ilə əlaqədar tədbirlər planlaşdırılsın və keçirilsin, işçilərin və əhalinin fövqəladə hadisələrdən qorunması ilə bağlı mütəmadi maarifləndirmə işlərinin aparılması təşkil edilsin.

1.6. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 655-32 nömrəli 8 dekabr 1992-ci il tarixli qərarına müvafiq olaraq rayonda xəbərdarlıq və rabitə sistemlərinin hazır vəziyyətdə saxlanılması, fövqəladə hadisələr zamanı idarəetmənin operativ təşkili, mərkəzi çağırış dayaqlarının və elektrik sirenalarının işlək vəziyyətdə saxlanılması təmin edilsin.

Scanned with CamScanner

1.7. "Azərbaycan Respublikasında sülh və müharibə dövrlərində fövqəladə hallarda əhalini mühafizənin əsas prinsipləri haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 700 nömrəli 28 dekabr 1992-ci il tarixli qərarının tələblərinin yerinə yetirilməsi məqsədilə rayon ərazisində kollektiv mühafizə qurğuları tələb olunan texniki istismar vəziyyətinə gətirilsin.

1.8. Rayon İcra Hakimiyyətinin 6-cı mikrorayon 1410-cu keçid, 3215-ci məhəllə ünvanında yerıəşən 852 inventar nömrəli sığınacaqda nəzərdə tutulmuş ehtiyat idarəetmə məntəqəsinin aidiyyəti üzrə emlak ve texniki vasitələrlə komplektləşdirməsi və təmir olunması məqsədi ilə Binəqədi Rayon İcra Hakimiyyəti başçısının birinci müavini müvafiq işlərin görülməsini təmin etsin.

1.9. Rayon İcra Hakimiyyətində səfərbərlik ehtiyatı anbarlarından rayonun işləməyən əhalisi üçün ayrılmış mülki müdafiə əmlaklarının bölüşdürülməsi ilə bağlı hazırlanmış sənədlərdə əhalinin sayının dəyişməsi ilə əlaqədar düzəlişlər aparılsın.

1.10. MM xidmətlərinin şəxsi heyətlə komplektləşdirilməsi, lazımi tabel əmlakı ilə təchizatı və hazırlığı təmin edilsin. Ehtimal olunan fövqəladə hadisələr zamanı qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi məqsədilə onların nəzəri cəhətdən öyrənilməsinə və əməli vərdişlərin əldə olunmasına xüsusi diqqət yetirilsin.

1.11. 2025-ci tədris ilində obyektlərin rəhbər, komandir-rəis heyətinin, mülki müdafiə qüvvələrinin və mütəxəssislərinin hazırlanması, işçilərə və işləməyən əhaliyə, ali məktəb və kollec tələbələrinə, texniki peşə və orta ümumtəhsil məktəblərinin və onlara bərabər tutulan təhsil müəssisələrinin şagirdlərinə mülki müdafiənin öyrədilməsi “Mülki müdafiənin təmin edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 193 nömrəli 25 sentyabr 1998-ci il tarixli qərarının tələblərinə uyğun həyata keçirilsin

1.12. Mülki müdafiəni tədris edən sinif rəhbərləri ilə tədris ilinin əvvəlində Binəqədi rayonu 276 nömrəli tam orta məktəbdə 2025-ci ilin sentyabr ayının ilk həftəsində üç günlük kurs keçirilsin.

1.13. Ümumtəhsil məktəblərində, texniki peşə və onlara bərabər tutulan digər təhsil müəssisələrində 02 aprel-15 may tarixlərində mülki müdafiə günləri keçirilsin.

1.14. Mülki müdafiənin maddi-texniki bazasının, mühafizə qurğuları fondunun, fərdi mühafizə vasitələri, cihazlar və digər mülki müdafiə avadanlıqlarının ehtiyatının yaradılması və hazır vəziyyətdə saxlanılması təmin edilsin. Kimyəvi təhlükəli obyektlərdə bu tədbirlərin yerinə yetirilməsinə xüsusi diqqət yetirilsin.

1.15. Müşahidə və Laboratoriya Nəzarəti Şəbəkəsinə daxil olan obyekt laboratoriyalarının hazırlığına, avadanlıq və cihazlarla təmin olunmasına diqqət artırılsın.

Scanned with CamScanner

2. Binəqədi Rayon İcra Hakimiyyətinin növbətçisi rayonda baş vermiş fövqəladə hadisə barədə müvafiq xəbərdarlıq sxeminə əsasən Fövqəladə Hallar Komissiyasının sədrinin və üzvlərinin, rayonun rəhbər heyətinin dərhal xəbərdar olunmasını təmin etsin, eləcə də Binəqədi rayon fövqəladə hallar və mülki müdafiə şöbəsini məlumatlandırsın.

3. 2025-ci ilin dekabr ayı ərzində 2025-ci tədris ilinin yekunu və 2026-cı ildə qarşıda duran vəzifələr üzrə mülki müdafiənin rəhbər heyətinin tədris-metodiki toplanışı keçirilsin.

4. Mülki müdafiə üzrə tədris ili 2025-ci ilin ilk iş günü başlansın və 28 noyabrda başa çatdırılsın.

5. Sərəncam rayonun mülki müdafiə xidmətlərinə, idarə, müəssisə və təşkilatlara çatdırılsın.

6. Sərəncamın icrasına nəzarət Rayonun Fövqəladə Hallar Komissiyasının sədri və Binəqədi rayonu üzrə Fövqəladə Hallar və Mülki müdafiə şöbəsinin rəisi, polkovnik-leytenant Emil Hüseynova həvalə edilsin.

**Elxan Allahverdiyev**

***ƏSLİ İLƏ DÜZDÜR:***
**Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri** — **Sabir Əliyev**

Azərbaycan Respublikası Bakı şəhəri Binəqədi rayon İcra Hakimiyyəti
SƏNƏDLƏR ÜÇÜN

Scanned with CamScanner